Kredo 2019.- 9 oktyabr.- S.16.



Əzizimiz Sevindik Nəsiboğlu! Mən sənin kitablarının təqdimatında iştirak eləmişəm. Aydın, rəvan, sağlam məntiqə söykənən çıxışlarını dinləmişəm fəxr etmişəm, qürurlanmışam ki, bu gün cəmiyyətimizdə sənin kimi sözün həqiqi mənasında çox böyük istedada malik balalarımız böyüyür.

Cəsarətlə demək olar ki, səni vətənimizin hər yerində yaxşı tanıyır və sevirlər. Bu da təsadüfi deyil, sən çox kiçik yaşlarından sosial şəbəkədə fəal görünürsən. Demək olar ki, elə bir əlamətdar gün, tarixi hadisə yoxdur ki, sən münasibət bildirməyəsən; özü də əhatəli, dolğun məlumatlarla çıxış edir, günün və yaxud tarixi hadisənin vətənimizin taleyindəki yerini, əhəmiyyətini əhatəli şəkildə şərh eləməklə...

Maraq doğuran bir cəhət də budur ki, qardaş Türkiyənin də mədəniyyət və elm tarixi ilə bağlı olan görkəmli şəxsiyyətlərin həyat və fəaliyyətləri haqqında qələmə aldığın portiret yazılar da yüzlərlə, hətta bəzən minlərlə izləyicinin diqqətini cəlb edir. Ayrı-ayrı vaxtlarda Atatürk, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu, Nəriman Nərimanov, Ulu Öndər Heydər Əliyev və digərləri haqqında yazdıqlarını mən də maraqla oxumuşam, görmüşəm ki, sən sadəcə tərcümeyi-hal qeydləri yazmırsan, yeri gəldikcə tarixi şəxsiyyətlərin yaşadığı dövrü xarakterizə edirsən, öz münasibətini də bildirirsən.

Ədəbi-publisistik yardıcılığının bir maraqlı cəhəti də var: bu mövzu müxtəlifliyidir. Rəssamlıq, heykəltaraşlıq, teatr və teatrşünaslıq, kino salnaməmiz... bunlar sənin qələm işlətdiyin əsas sahələrdir. Teatr və kino aktyorları haqqındakı yazılarına görkəmli mədəniyyət və incəsənət xadimlərinin sənət yolunu əks etdirən şəkillər də əlavə edirsən. Bu da onu göstərir ki, sənin mədəniyyətimizə, xalqımızın mənəvi dəyər tarixinə sonsuz sevgin var.

Yayın sonlarına yaxın Naxçıvana səfər eləmisən və “Naxçıvan xatirələri”ni qələmə almısan. Mən həmin yazını oxudum və çox təsirləndim, çünki burada sənin uşaq qəlbinin titrəyişlərini də

# ÜFÜQLƏR AÇIQDIR...

## *Sevindik Nəsiboğluna məktub*



gördüm. Hiss və duyğularını necə həyəcanla sözə gətirməyini də hiss etdim. Naxçıvanın tarixi taleyi ilə bağlı düşüncələrin məni kövrəltdi. Düşündüm ki, vətənin hər bir guşəsi üçün vətən övladı məsuliyyət daşımalıdır. Və sən elə bu hissi təlqin edirsən.

Bu günlərdə mənim ad günümlə bağlı qeydlərin də diqqətimdən yayınmadı. Açığını deyim ki, mənim haqqımda çox yazılıb, görkəmli elm və mədəniyyət xadimləri əsərlərimi təhlil ediblər. Nəşr olunan kitablarım haqqında rəy bildiriblər, amma sənin yazdıqlarının dəyəri mənim üçün daha böyükdür. Çünki, sənin uşaq dünyanda bir saflıq, sağlamlıq var. Gələcəkdə haqqımda yazılanları bir kitaba toplayanda sənin qeydlərini də diqqətdən kənarda qoymayacağam. Görkəmli pedaqoqlar deyirlər ki, “uşağı uşaq yerinə qoyma”, ona toxunulmaz şəxsiyyət kimi bax.

Sən isə artıq uşaq deyilsən, cəmiyyətin fəal vətəndaşısan. Hər hansı məsələyə dair yerində, aydın fikir bildirə bilirsən, mülahizə yürüdürsən. Düşünürəm ki, sən bizim qəzetin redaksiya heyyətinin üzvü olsan bunun “Kredo”ya böyük faydası olar. Onsuz da sən artıq “Kredo” qəzetinin fəal təbliğatçısısan. Mən redaksiya heyətinin üzvü olan görkəmli elm və ədəbiyyat adamları ilə ayrı-ayrılıqda söhbət eləmişəm, onlar da sənin adını redaksiya heyətinin üzvləri sırasında görməkdən məmnun olacaqlarını bildirirlər. Əgər razılıq versən və bizim redaksiya heyətinin üzüvləri sırasında təmsil olunsan redaksiyanın əməkdaşları da bundan çox razı qalarlar.

Bu günlərdə “Kredo” qəzetinin 20 yaşı tamam olur. 20 illik yubileyimizi geniş ictimaiyyətlə birgə qeyd etməyi düşünürük. 1000-ci sayımız da yaxınlaşır. Bundan sonra “Kredo” sənə sevgi ilə qucaq açacaq.

Əzizimiz Sevindik Nəsiboğlu, üfüqlər açıqdır. Sənin mənəvi dünyan kimi aydın bir yol görünür. Bu yolda sənə uğurlar arzulayırıq.

*Əli Rza* Xələfli
***“Kredo” qəzetinin baş redaktoru.***
***08.10.2019***